# FACTORS AFFECTING THE ACADEMIC SUCCESS OF LEARNERS IN THE MILITARY EDUCATION ENVIRONMENT

**Ilhama Zulfiqarova**[1]

**UDC:** 355.23:37.01:159.953.5
**LBC:** 68.43:74.48
**HoS:** 178
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.344-353

**Keywords:**

Military educational environment, Cadets' academic achievement, Learning process, Motivation, Pedagogical factors, Competency-based education

## ABSTRACT

This article provides a comprehensive analysis of the key factors influencing the academic success of learners in the military education environment. The study demonstrates that academic performance is shaped not only by individual abilities but also by the interaction of pedagogical, psychological, social, organizational, and technological factors. From a pedagogical perspective, interactive and competency-based teaching methods, as well as the quality of teacher–learner relationships, significantly enhance learning outcomes. Psychological factors, particularly motivation and stress resilience, play an essential role in learners' adaptation to the educational process. In the social environment, collective relationships, leadership, and team spirit create conditions conducive to improved academic achievement. Organizational factors, such as the structure of curricula and material-technical resources, determine the effectiveness of the learning process. Technological capabilities make instruction more interactive and flexible. Overall, the synergy of these factors serves as the main determinant of learners' academic success in the military education system and strengthens their professional preparedness.

**Subject area:**

Social Sciences

**Research field:**

Military Pedagogy

[1] Associate Professor-Methodologist,
National Defense University; Baku, Azerbaijan
E-mail: ilhama.zulfugarova@gmail.com
https://orcid.org/0009-0004-0922-8017

**To cite this article:** Zulfiqarova, I. [2026]. Factors Affecting the Academic Success of Learners in the Military Education Environment. *History of Science journal*, *7*(2), pp.344-353.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.344-353

***Article history:***
*Received: 19 March 2026*
*Revised: 20 April 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# HƏRBİ TƏDRİS MÜHİTİNDƏ TƏHSİLALANLARIN AKADEMİK UĞURUNA TƏSİR EDƏN AMİLLƏR

**İlhamə Zülfüqarova**[1]

**UOT:** 355.23:37.01:159.953.5
**KBT:** 68.43:74.48
**HoS:** 178
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.344-353

**Açar sözlər:**

Hərbi tədris mühiti. Təhsilalanların akademik uğuru, Tədris prosesi, Motivasiya, Pedaqoji amillər, Kompetensiyaya əsaslanan təlim

**Sahə:**

İctimai elmlər

**Tədqiqat sahəsi:**

Hərbi Pedaqogika

## ANNOTASİYA

Bu məqalədə hərbi tədris mühitində təhsilalanların akademik uğuruna təsir edən əsas amillər kompleks şəkildə təhlil edilmişdir. Araşdırma göstərir ki, akademik nəticələr təkcə fərdi qabiliyyətlərlə deyil, pedaqoji, psixoloji, sosial, təşkilati və texnoloji faktorların qarşılıqlı təsiri ilə formalaşır. Pedaqoji baxımdan interaktiv və kompetensiyaya əsaslanan təlim metodları, eləcə də müəllim–təhsilalan münasibətlərinin keyfiyyəti öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Psixoloji amillər, xüsusilə motivasiya və stressə davamlılıq, təhsilalanların tədris prosesinə uyğunlaşmasında mühüm rol oynayır. Sosial mühitdə kollektiv münasibətlər, liderlik və komanda ruhu akademik uğurun yüksəlməsinə şərait yaradır. Təşkilati amillər – tədris planlarının strukturu və maddi-texniki baza – öyrənmə prosesinin effektivliyini müəyyən edir. Texnoloji imkanlar isə tədrisi daha interaktiv və çevik edir. Ümumilikdə, bütün bu amillərin sinerjisi hərbi təhsil sistemində təhsilalanların akademik uğurunun əsas təminatçısı kimi çıxış edir və onların peşəkar hazırlığını gücləndirir.

[1] Dosent-metodist,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: ilhama.zulfugarova@gmail.com
https://orcid.org/0009-0004-0922-8017
**Məqaləyə istinad:** Zülfüqarova, İ. [2026]. Hərbi Tədris Mühitində Təhsilalanların Akademik Uğuruna Təsir Edən Amillər. *History of Science jurnalı*, *7*(2), səh.344-353.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.344-353

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 19.03.2026*
*Yenidən baxılıb: 20.04.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА АКАДЕМИЧЕСКУЮ УСПЕВАЕМОСТЬ ОБУЧАЮЩИХСЯ В ВОЕННОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

**Ильхама Зульфугарова**[1]

**УДК:** 355.23:37.01:159.953.5
**ББК:** 68.43:74.48
**HoS:** 178
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.344-353

**Ключевые слова:**

Военная образовательная среда, Академическая успеваемость курсантов, Учебный процесс, Мотивация, Педагогические факторы, Компетентностно-ориентированное обучение

**Область исследования:**

Социальные науки

**Научная область:**

Военная педагогика

## АННОТАЦИЯ

В данной статье представлен комплексный анализ основных факторов, влияющих на академическую успеваемость обучающихся в военной образовательной среде. Исследование показывает, что академические результаты формируются не только индивидуальными способностями, но и взаимодействием педагогических, психологических, социальных, организационных и технологических факторов. С педагогической точки зрения интерактивные и компетентностно-ориентированные методы обучения, а также качество отношений между преподавателем и обучающимся существенно повышают результаты обучения. Психологические факторы, особенно мотивация и стрессоустойчивость, играют важную роль в адаптации обучающихся к образовательному процессу. В социальной среде коллективные отношения, лидерство и командный дух способствуют повышению академической успеваемости. Организационные факторы, такие как структура учебных планов и материально-техническая база, определяют эффективность учебного процесса. Технологические возможности делают обучение более интерактивным и гибким. В целом синергия всех этих факторов выступает основным условием академической успешности обучающихся в системе военного образования и укрепляет их профессиональную подготовку.

[1] Доцент-методист,
Национальный университет обороны; Баку, Азербайджан
E-mail: ilhama.zulfugarova@gmail.com
https://orcid.org/0009-0004-0922-8017

**Цитировать статью:** Зульфугарова, И. [2026]. Факторы, влияющие на академическую успеваемость обучающихся в военной образовательной среде. *Журнал History of Science, 7*(2), с.344-353.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.344-353

***История статьи:***
*Поступила: 19.03.2026*
*Переработана: 20.04.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir dövrdə hərbi təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri yüksək peşəkarlığa, strateji düşünmə qabiliyyətinə və çevik qərarvermə kompetensiyasına malik zabit kadrlarının hazırlanmasıdır. Bu baxımdan hərbi tədris müəssisələrində təhsilalanların akademik uğuru yalnız fərdi təhsil göstəricisi kimi deyil, eyni zamanda gələcək hərbi xidmətin keyfiyyətinə birbaşa təsir edən əsas amil kimi çıxış edir. Akademik uğurun təmin olunması isə çoxsaylı pedaqoji, psixoloji, sosial və təşkilati faktorların qarşılıqlı təsiri nəticəsində mümkün olur.

Hərbi tədris mühiti öz spesifik xüsusiyyətlərinə görə digər ali təhsil mühitlərindən fərqlənir. Burada təlim prosesi ciddi nizam-intizam, yüksək məsuliyyət, fiziki və intellektual yüklənmənin paralel həyata keçirilməsi şəraitində təşkil olunur. Bu xüsusiyyətlər təhsilalanların həm təlim fəaliyyətinə uyğunlaşmasını, həm də akademik göstəricilərini formalaşdıran mühüm determinantlar kimi çıxış edir. Belə bir mühitdə tədris prosesi yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin hərbi-peşəkar baxımdan formalaşdırılmasına yönəlmiş kompleks inkişaf prosesidir.

Digər tərəfdən, müasir hərbi təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqi, simulyasiya əsaslı təlim metodlarının genişlənməsi və kompetensiyaya əsaslanan tədris modelinin üstünlük qazanması təhsilalanların akademik uğuruna təsir edən yeni amilləri ortaya çıxarmışdır. Bu dəyişikliklər tədris prosesinin daha çevik, interaktiv və nəticəyönümlü təşkilini tələb edir. Eyni zamanda, təhsilalanların fərdi xüsusiyyətləri, motivasiya səviyyəsi, stressə davamlılıq və sosial adaptasiya bacarıqları da onların akademik nəticələrində mühüm rol oynayır.

Beləliklə, hərbi tədris mühitində təhsilalanların akademik uğuruna təsir edən amillərin sistemli şəkildə araşdırılması müasir hərbi pedaqogikanın aktual problemlərindən biri kimi çıxış edir.

## 2.Hərbi tədris mühitinin spesifik xüsusiyyətləri

Hərbi tədris mühiti ali təhsil sisteminin xüsusi bir forması olmaqla, özünün struktur, məzmun və təşkilati xüsusiyyətlərinə görə mülki təhsil müəssisələrindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu mühitdə tədris prosesi yalnız akademik biliklərin mənimsədilməsi ilə məhdudlaşmır, eyni zamanda gələcək zabitin peşəkar, fiziki, psixoloji və mənəvi hazırlığının kompleks şəkildə formalaşdırılmasına yönəlir. Bu baxımdan hərbi təhsil sistemi “təhsil + xidmət + tərbiyə” üçlüyü əsasında fəaliyyət göstərən inteqrativ bir model kimi xarakterizə olunur.

Hərbi tədris mühitinin əsas spesifik xüsusiyyətlərindən biri ciddi nizam-intizam və normativ tənzimləmə sistemidir. Təhsilalanların gündəlik fəaliyyəti hərbi nizamnamələr, daxili qaydalar və xidmət rejimi ilə tənzimlənir. Bu sistemin məqsədi yalnız davranışın tənzimlənməsi deyil, həm də şəxsiyyətin özünənəzarət, məsuliyyət və intizam kimi keyfiyyətlərinin formalaşdırılmasıdır.

Digər mühüm xüsusiyyət tədris və xidmət fəaliyyətinin paralel şəkildə həyata keçirilməsidir. Təhsilalanlar eyni zamanda həm tədris prosesində iştirak edir, həm də gündəlik hərbi xidmət tapşırıqlarını yerinə yetirirlər. Bu ikili fəaliyyət modeli onların zaman idarəetməsi bacarıqlarını inkişaf etdirir, lakin eyni zamanda akademik yükün artmasına və psixoloji gərginliyin yüksəlməsinə səbəb olur. Bu baxımdan hərbi tədris mühiti yüksək intensivlikli öyrənmə mühiti kimi xarakterizə olunur.

Hərbi tədris mühitinin üçüncü spesifik cəhəti kollektivlik və iyerarxik münasibətlər sistemidir. Təhsilalanlar arasında münasibətlər hərbi subordinasiya prinsiplərinə əsaslanır və komanda daxilində vahid məqsəd uğrunda fəaliyyət üstünlük təşkil edir. Bu yanaşma sosial identiklik və qrup məsuliyyəti hissinin formalaşmasına şərait yaradır. Hərbi təhsil

mühitində bu faktor akademik fəaliyyətə həm stimullaşdırıcı, həm də məhdudlaşdırıcı təsir göstərə bilər.

Hərbi tədris mühitinin digər bir mühüm xüsusiyyəti qiymətləndirmə və nəzarət sisteminin sərtliyidir. Təhsilalanların bilik və bacarıqları yalnız yazılı imtahanlarla deyil, həm də praktiki məşğələlər, taktiki hazırlıq və davranış göstəriciləri əsasında qiymətləndirilir. Bu yanaşma kompetensiyaya əsaslanan təhsil modelinə uyğun olmaqla yanaşı, öyrənmə nəticələrinin daha obyektiv ölçülməsinə imkan yaradır [Bloom, 1956, s.108].

Bundan əlavə, hərbi tədris mühitində ideoloji-tərbiyəvi komponent də mühüm yer tutur. Təhsilalanların vətənpərvərlik ruhunda formalaşdırılması, dövlətçilik dəyərlərinə sadiqlik və hərbi andın mahiyyətinin dərk edilməsi tədris prosesinin ayrılmaz hissəsidir. Bu yanaşma onların peşəkar identitetinin formalaşmasına xidmət edir və gələcək xidmət fəaliyyətində davranış modelini müəyyənləşdirir.

Hərbi tədris mühiti çoxşaxəli və kompleks xarakter daşıyır. Burada tədris prosesi yalnız akademik biliklərin ötürülməsi deyil, eyni zamanda şəxsiyyətin peşəkar, psixoloji və sosial baxımdan formalaşdırılması prosesidir. Bu mühitin spesifik xüsusiyyətləri təhsilalanların akademik uğuruna birbaşa təsir göstərərək, onların gələcək hərbi xidmət fəaliyyətinin keyfiyyətini müəyyən edir.

**3.Pedaqoji amillər**

Pedaqoji amillər hərbi tədris mühitində təhsilalanların akademik uğurunun formalaşmasında həlledici rol oynayan əsas determinantlardan biridir. Bu amillər tədris prosesinin məzmununu, təşkilini, metodoloji yanaşmalarını və müəllim–təhsilalan qarşılıqlı əlaqələrinin keyfiyyətini əhatə edir. Müasir pedaqoji ədəbiyyatda qeyd olunduğu kimi, tədrisin effektivliyi yalnız biliklərin ötürülməsi ilə deyil, həmin biliklərin tətbiqə yönəlmiş şəkildə mənimsədilməsi ilə müəyyən olunur [Bloom, 1956, s.96]. Xüsusilə hərbi təhsil sistemində bu yanaşma daha aktual xarakter daşıyır, çünki təhsilalanların gələcək peşə fəaliyyəti yüksək səviyyəli praktik bacarıqlar və operativ qərarvermə kompetensiyaları tələb edir.

Tədris metodları və didaktik yanaşmaların seçimi təhsilalanların akademik nəticələrinə birbaşa təsir göstərən əsas pedaqoji faktorlardan biridir. Ənənəvi izahlı-reproduktiv təlim modelləri ilə müqayisədə müasir interaktiv, problem əsaslı və kompetensiyaya yönəlmiş təlim metodları daha effektiv nəticələr verir. Bu yanaşma təhsilalanların yalnız informasiya qəbul edən subyekt deyil, eyni zamanda təlim prosesində aktiv iştirakçı kimi çıxış etməsini təmin edir.

Kompetensiyaya əsaslanan təlim yanaşması hərbi təhsil sistemində getdikcə daha geniş tətbiq olunmaqdadır. Bu model təhsilalanların yalnız nəzəri biliklərə deyil, eyni zamanda həmin bilikləri real hərbi şəraitdə tətbiq etmə bacarığına yiyələnməsini nəzərdə tutur. Hərbi tədris mühitində bu mərhələli yanaşma təhsilalanların taktiki və strateji düşünmə qabiliyyətlərinin formalaşdırılmasına şərait yaradır. Məsələn, sadə faktların yadda saxlanılmasından daha çox, həmin məlumatların döyüş şəraitində tətbiqi və situasiyaya uyğun qərarvermə bacarığının inkişafı əsas məqsəd kimi çıxış edir.

Müasir pedaqoji yanaşmaların digər mühüm istiqaməti problem əsaslı öyrənmə (Problem-Based Learning – PBL) modelidir. Bu modeldə təhsilalanlar real və ya reala yaxın situasiyalar üzərində işləyərək müstəqil həll yolları tapmağa yönləndirilir. Hərbi təhsil kontekstində PBL yanaşması taktiki təfəkkürün inkişafına, situativ analiz bacarığının gücləndirilməsinə və komanda daxilində qərarvermə prosesinin optimallaşdırılmasına xidmət edir [Məmmədzadə, 2025a].

Müəllim–təhsilalan münasibətləri pedaqoji amillər sistemində xüsusi yer tutur və akademik uğurun formalaşmasında mühüm rol oynayır. Effektiv pedaqoji ünsiyyət yalnız

bilik ötürülməsi prosesi deyil, eyni zamanda emosional və psixoloji dəstək mexanizmidir. Müəllimlə təhsilalan arasında qarşılıqlı etimada əsaslanan münasibətlər tədris prosesinin səmərəliliyini artırır və təhsilalanların öyrənmə motivasiyasını gücləndirir. Tədqiqatçılar qeyd edir ki, müəllimin təsir gücü təhsil nəticələrinə ən çox təsir edən amillərdən biridir və bu təsir düzgün qurulmuş pedaqoji münasibətlər vasitəsilə daha da gücləndirilə bilər [Məmmədzadə, 2025b].

Pedaqoji amillər – xüsusilə tədris metodlarının düzgün seçilməsi və müəllim–təhsilalan münasibətlərinin effektiv təşkili – hərbi tədris mühitində akademik uğurun əsas təminatçılarından biri kimi çıxış edir. Bu amillərin elmi əsaslarla qurulması təhsilalanların həm nəzəri biliklərinin, həm də praktiki bacarıqlarının inkişafına kompleks şəkildə təsir göstərir və onların gələcək hərbi peşə fəaliyyətində yüksək nəticələr əldə etməsinə zəmin yaradır.

**4.Psixoloji amillər**

Psixoloji amillər hərbi tədris mühitində təhsilalanların akademik uğurunun formalaşmasında həlledici rol oynayan əsas determinantlardan biri kimi çıxış edir. Bu amillər fərdin daxili psixi proseslərini, emosional vəziyyətini, motivasiya səviyyəsini, stressə davamlılığını və yeni mühitə uyğunlaşma qabiliyyətini əhatə edir. Öyrənmə nəticələrinin keyfiyyəti yalnız tədris metodlarından deyil, eyni zamanda öyrənənin psixoloji resurslarının səfərbər olunma səviyyəsindən də birbaşa asılıdır. Hərbi təhsil sistemində bu amillərin təsiri daha kəskin şəkildə müşahidə olunur, çünki təhsilalanlar həm intellektual, həm də fiziki baxımdan yüksək intensivlikli mühitdə fəaliyyət göstərirlər.

Motivasiya psixoloji amillər arasında ən fundamental komponent kimi qəbul edilir və təhsilalanların akademik fəaliyyətində davamlılıq, məqsədyönlülük və səmərəlilik səviyyəsini müəyyənləşdirir. Özünümüəyyənetmə nəzəriyyəsinə görə, fərdin davranışının formalaşmasında daxili və xarici motivasiya mənbələri mühüm rol oynayır. Hərbi təhsil mühitində daxili motivasiya əsasən vətənpərvərlik hissi, hərbi peşəyə bağlılıq və gələcək zabit kimi formalaşma arzusu ilə əlaqələndirilir. Bu faktorlar təhsilalanların tədris prosesinə daha şüurlu və məqsədyönlü yanaşmasına şərait yaradır.

Bununla yanaşı, xarici motivasiya da müəyyən stimullaşdırıcı rol oynayır. Qiymətləndirmə sistemi, nizam-intizam qaydaları və xidmət məsuliyyəti təhsilalanların tədris fəaliyyətində iştirakını təmin edən xarici təsir mexanizmləri kimi çıxış edir. Lakin tədqiqatlar göstərir ki, yalnız xarici motivasiyaya əsaslanan öyrənmə uzunmüddətli perspektivdə dayanıqlı nəticələr vermir və öyrənmə keyfiyyətinin azalmasına səbəb ola bilər [Ryan & Deci, 2000, s.64]. Bu səbəbdən müasir hərbi pedaqogikada daxili və xarici motivasiyanın balanslaşdırılması əsas strateji vəzifələrdən biri kimi çıxış edir.

Motivasiyanın formalaşmasında sosial-psixoloji mühitin də mühüm rolu vardır. Təhsilalanların kollektiv daxilində özlərini qəbul edilmiş hiss etməsi, müəllim və komandanlıq tərəfindən dəstəklənməsi onların öyrənmə fəaliyyətinə müsbət təsir göstərir.

Psixoloji amillərdən ikinci mühüm komponent stress və adaptasiya prosesidir. Hərbi tədris mühiti yüksək fiziki yüklənmə, ciddi nizam-intizam və zaman məhdudiyyəti ilə xarakterizə olunduğundan təhsilalanlar tez-tez stress vəziyyətləri ilə qarşılaşırlar.

Adaptasiya prosesi hərbi tədris mühitinə uyğunlaşmanın əsas psixoloji mexanizmi kimi çıxış edir. Təhsilalanlar yeni sosial rol, sərt intizam qaydaları və intensiv gündəlik rejimə uyğunlaşmaq məcburiyyətində qalırlar. Bu prosesin uğurlu olması onların psixoloji dayanıqlılığından, emosional sabitliyindən və kopinq strategiyalarından asılıdır. Eyni zamanda, adaptasiya prosesində qrup dəstəyi və sosial inteqrasiya mühüm rol oynayır. Təhsilalanların kollektiv daxilində qəbul olunması və komanda ruhunun formalaşması onların psixoloji rahatlığını artırır və tədris prosesinə daha effektiv qoşulmasına imkan yaradır.

Stressin idarə olunmaması isə ciddi mənfi nəticələrə gətirib çıxara bilər. Yüksək səviyyəli stress koqnitiv funksiyaların zəifləməsinə, diqqət yayınıqlığına və yaddaş problemlərinə səbəb ola bilər ki, bu da birbaşa olaraq akademik göstəricilərə təsir edir. Bu baxımdan hərbi təhsil müəssisələrində psixoloji dəstək sistemlərinin qurulması, stress menecment proqramlarının tətbiqi və psixoloji hazırlıq məşğələlərinin keçirilməsi xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, psixoloji amillər – xüsusilə motivasiya və stressə adaptasiya – hərbi tədris mühitində təhsilalanların akademik uğurunun əsas müəyyənedici faktorları kimi çıxış edir. Bu amillərin düzgün idarə olunması təhsilalanların tədris prosesinə inteqrasiyasını gücləndirir, onların bilik və bacarıqlarının daha səmərəli formalaşmasına şərait yaradır və nəticə etibarilə gələcək hərbi peşə fəaliyyətinin keyfiyyətini yüksəldir.

**5.Təhsilalanların akademik uğuruna təsir edən sosial, təşkilati və texnoloji amillərin kompleks təhlili**

Sosial, təşkilati və texnoloji amillər hərbi tədris mühitində təhsilalanların akademik uğurunun formalaşmasında sistem xarakterli təsirə malik olan əsas determinantlar kimi çıxış edir. Bu amillər təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqədə fəaliyyət göstərərək tədris prosesinin ümumi effektivliyini müəyyən edir. Müasir pedaqoji və sosial-psixoloji yanaşmalar göstərir ki, öyrənmə nəticələri yalnız fərdi qabiliyyətlərlə deyil, həm də sosial mühitin keyfiyyəti, təşkilati strukturun optimallığı və texnoloji təminat səviyyəsi ilə sıx bağlıdır [Biggs, 2003, 10].

Hərbi tədris mühitində sosial amillər xüsusi əhəmiyyət kəsb edir, çünki təhsilalanların fəaliyyəti kollektiv struktur daxilində təşkil olunur və onların gündəlik təlim prosesi yüksək səviyyədə sosial qarşılıqlı əlaqəyə əsaslanır. Kollektiv mühit təhsilalanların davranış modellərinin formalaşmasına, öyrənmə motivasiyasına və akademik nəticələrinə birbaşa təsir göstərən əsas faktorlardan biridir. Tinto qeyd edir ki, təhsil müəssisəsində sosial inteqrasiya səviyyəsi tələbənin təhsildə davamlılığını və uğurunu müəyyən edən əsas amillərdəndir [Tinto, 1993, s.84]. Hərbi təhsil sistemində bu faktor daha güclü təsirə malikdir, çünki təhsilalanlar həm tədris, həm də xidmət fəaliyyətində daimi kollektiv təmasda olurlar.

Kollektiv mühit daxilində sağlam rəqabət öyrənmə prosesinin stimullaşdırıcı mexanizmi kimi çıxış edir. Təhsilalanlar arasında akademik və peşəkar göstəricilərə əsaslanan rəqabət onların daha fəal öyrənməsinə, əlavə resurslardan istifadə etməsinə və özünüinkişaf fəaliyyətinə yönəlməsinə şərait yaradır [Lazarus & Folkman, 1984, s.97-98]. Lakin konfliktli və destruktiv sosial münasibətlər əks təsir göstərərək stress səviyyəsini artırır, diqqətin yayınıqlığına səbəb olur və akademik göstəricilərin aşağı düşməsinə gətirib çıxarır. Bu baxımdan sosial mühitin balanslaşdırılması və komandadaxili münasibətlərin tənzimlənməsi hərbi pedaqogikanın əsas vəzifələrindən biri kimi çıxış edir.

Sosial amillər içərisində liderlik və komanda ruhu xüsusi yer tutur. Hərbi təhsil mühitində liderlik bacarıqları yalnız idarəetmə və xidmət fəaliyyətində deyil, eyni zamanda tədris prosesində də mühüm rol oynayır. Təhsilalanlar arasında liderlik potensialının inkişafı onların məsuliyyət hissini gücləndirir, qərarvermə bacarıqlarını təkmilləşdirir və akademik fəaliyyətə daha sistemli yanaşmanı təmin edir. Hərbi tədris mühitində bu yanaşma komanda daxilində akademik uğurun yüksəldilməsinə mühüm töhfə verir.

Komanda ruhu isə sosial inteqrasiyanın praktiki ifadəsi kimi çıxış edir. Təhsilalanlar arasında qarşılıqlı dəstək mexanizmlərinin mövcudluğu onların akademik çətinlikləri daha asan həll etməsinə imkan yaradır.

Təşkilati amillər isə hərbi tədris mühitinin strukturlaşdırılmış idarəetmə sistemini əks etdirir və tədris prosesinin səmərəliliyinə birbaşa təsir göstərir. Tədris planlarının düzgün strukturu təhsilalanların akademik yükünün balanslaşdırılmasında və öyrənmə prosesinin

optimallaşdırılmasında mühüm rol oynayır. Nəzəri və praktiki dərslərin uyğun şəkildə inteqrasiyası təhsilalanların bilikləri daha dərindən mənimsəməsinə və onların real situasiyalarda tətbiq etmə bacarıqlarının inkişafına şərait yaradır. Biggs "constructive alignment" modelində göstərir ki, tədris məqsədləri, metodlar və qiymətləndirmə sistemləri arasında uyğunluq öyrənmə nəticələrinin keyfiyyətini müəyyən edən əsas faktordur [Biggs, 2003, s.58].

Tədris planlarının optimallaşdırılması həm də təhsilalanların psixoloji yüklənməsinin idarə olunmasına xidmət edir. Hərbi təhsil sistemində intensiv tədris və xidmət rejimi nəzərə alındıqda, balanslaşdırılmış proqramların tətbiqi akademik uğurun qorunması üçün zəruri şərt kimi çıxış edir. OECD təhsil tədqiqatlarında göstərilir ki, tədris yükünün düzgün planlaşdırılması tələbələrin akademik performansına və ümumi rifahına müsbət təsir göstərir [OECD, 2018].

Maddi-texniki baza təşkilati amillər arasında xüsusi əhəmiyyət daşıyır. Müasir laboratoriyalar, simulyasiya sistemləri və rəqəmsal tədris platformaları təhsilalanların həm nəzəri, həm də praktiki bacarıqlarının inkişafında mühüm rol oynayır. Texnoloji cəhətdən inkişaf etmiş tədris mühiti öyrənmə prosesini daha interaktiv və effektiv edir. Mayer multimedia öyrənmə nəzəriyyəsində qeyd edir ki, vizual və interaktiv resursların istifadəsi koqnitiv yükü optimallaşdırır və məlumatın daha effektiv mənimsənilməsinə şərait yaradır [Mayer, 2001]. Hərbi təhsil mühitində bu yanaşma xüsusilə əhəmiyyətlidir, çünki simulyasiya sistemləri real döyüş şəraitinin modelləşdirilməsinə imkan verir və təhsilalanların praktik hazırlığını gücləndirir.

Texnoloji amillər müasir hərbi təhsilin ayrılmaz komponentinə çevrilmişdir. Elektron təlim platformaları təhsilalanlara istənilən vaxt və məkanda tədris materiallarına çıxış imkanı yaradır, bu isə öyrənmə prosesinin çevikliyini artırır. Virtual döyüş simulyasiyaları taktiki qərarvermə bacarıqlarının inkişafına xidmət edir, distant tədris resursları isə nəzəri biliklərin daha geniş və sistemli mənimsənilməsini təmin edir. Siemens konektivizm nəzəriyyəsində qeyd edir ki, bilik müasir dövrdə şəbəkə strukturu şəklində formalaşır və texnoloji vasitələr bu biliklərin ötürülməsində əsas rol oynayır [Siemens, 2005, s.128].

Akademik uğura təsir edən bu amillərin inteqral yanaşma çərçivəsində təhlili göstərir ki, hərbi tədris mühitində nəticələr yalnız bir faktorla deyil, pedaqoji, psixoloji, sosial, təşkilati və texnoloji komponentlərin kompleks qarşılıqlı təsiri ilə formalaşır. Pedaqoji prosesin effektivliyi yalnız metodların düzgün seçilməsi ilə deyil, həm də sosial mühitin sağlamlığı, təşkilati strukturun optimallığı və texnoloji təminatın səviyyəsi ilə müəyyən olunur.

Sosial, təşkilati və texnoloji amillər hərbi tədris mühitində təhsilalanların akademik uğurunun formalaşmasında bir-birini tamamlayan və gücləndirən sistem komponentləri kimi çıxış edir. Bu amillərin elmi əsaslarla idarə olunması və inteqrasiyası təhsil prosesinin keyfiyyətini yüksəldir və təhsilalanların gələcək hərbi peşə fəaliyyətində daha yüksək nəticələr əldə etməsinə zəmin yaradır.

**6.Nəticə**

Hərbi tədris mühitində təhsilalanların akademik uğuruna təsir edən amillərin təhlili göstərir ki, bu proses çoxölçülü və sistem xarakterli mahiyyət daşıyır. Tədqiqat nəticələrinə əsasən demək olar ki, təhsilalanların təhsil nailiyyətləri təkcə fərdi intellektual imkanlarla deyil, eyni zamanda pedaqoji, psixoloji, sosial, təşkilati və texnoloji amillərin qarşılıqlı təsiri ilə formalaşır. Bu amillərin hər biri ayrı-ayrılıqda əhəmiyyətli olsa da, onların sinergetik təsiri akademik uğurun əsas müəyyənedicisi kimi çıxış edir.

Pedaqoji amillərin təhlili göstərir ki, tədris metodlarının düzgün seçilməsi və müəllim–təhsilalan münasibətlərinin effektiv təşkili təhsilalanların öyrənmə keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. İnteraktiv və kompetensiyaya əsaslanan təlim yanaşmaları təhsilalanların

yalnız nəzəri bilikləri mənimsəməsinə deyil, həm də bu bilikləri praktik situasiyalarda tətbiq etməsinə imkan yaradır. Eyni zamanda, müəllimin pedaqoji rəhbərliyi və "yaxın inkişaf zonası" prinsipi çərçivəsində göstərilən dəstək təhsilalanların potensial imkanlarının reallaşmasına şərait yaradır.

Psixoloji amillər, xüsusilə motivasiya və stressə adaptasiya qabiliyyəti, akademik uğurun davamlılığını təmin edən əsas faktorlardan biri kimi çıxış edir. Daxili motivasiyanın yüksək olması təhsilalanların tədris prosesinə daha fəal qoşulmasına, xarici motivasiyanın isə əlavə stimullaşdırıcı rol oynamasına şərait yaradır. Bununla yanaşı, hərbi tədris mühitinə xas olan yüksək fiziki və psixoloji gərginlik təhsilalanların stress idarəetmə bacarıqlarını vacib edir. Stressə uyğunlaşma qabiliyyətinin zəif olması akademik göstəricilərin aşağı düşməsinə, güclü olması isə əksinə, performansın yüksəlməsinə səbəb olur.

Sosial amillərin rolu da xüsusilə diqqətəlayiqdir. Kollektiv mühitdə sağlam münasibətlərin formalaşması, komanda ruhunun gücləndirilməsi və konstruktiv rəqabət mühitinin yaradılması təhsilalanların akademik motivasiyasını artırır. Eyni zamanda, liderlik bacarıqlarının inkişafı təhsilalanların həm şəxsi, həm də akademik fəaliyyətinə müsbət təsir göstərir. Sosial inteqrasiya səviyyəsinin yüksək olması tədris prosesinə uyğunlaşmanı asanlaşdırır və öyrənmə nəticələrinin sabitliyini təmin edir.

Təşkilati amillər baxımından tədris planlarının düzgün strukturu və maddi-texniki bazanın müasir tələblərə uyğunluğu akademik uğurun mühüm təminatçısı kimi çıxış edir. Balanslaşdırılmış tədris proqramları təhsilalanların akademik yüklənməsini optimallaşdırır, simulyasiya sistemləri və müasir laboratoriyalar isə onların praktiki bacarıqlarını inkişaf etdirir. Bu amillər tədris prosesinin səmərəliliyini artıraraq, nəzəri biliklərin real hərbi situasiyalarda tətbiqinə imkan yaradır.

Texnoloji amillərin rolu müasir dövrdə xüsusilə artmışdır. Elektron təlim platformaları, virtual simulyasiya sistemləri və rəqəmsal resurslar təhsilalanların tədris prosesinə daha çevik və effektiv şəkildə qoşulmasına şərait yaradır. Bu texnologiyalar öyrənmə prosesini interaktivləşdirir, biliklərin daha sürətli və davamlı mənimsənilməsini təmin edir.

Ümumilikdə aparılan təhlil göstərir ki, hərbi tədris mühitində akademik uğurun təmin olunması üçün bütün bu amillərin kompleks şəkildə nəzərə alınması zəruridir. Yalnız vahid və inteqrativ yanaşma əsasında təhsilalanların təhsil nəticələrinin optimallaşdırılması mümkündür. Bu baxımdan, hərbi təhsil müəssisələrində pedaqoji strategiyaların təkmilləşdirilməsi, psixoloji dəstək sistemlərinin gücləndirilməsi, sosial mühitin sağlamlaşdırılması və texnoloji infrastrukturun inkişaf etdirilməsi prioritet istiqamətlər kimi qiymətləndirilməlidir.

Beləliklə, akademik uğur yalnız fərdi bacarıqların deyil, həm də sistemli tədris mühitinin məhsulu kimi çıxış edir və bu mühitin bütün komponentlərinin balanslı şəkildə idarə olunması gələcək zabit kadrlarının hazırlanmasında həlledici əhəmiyyət daşıyır.

## 7.REFERENCES

1. Bloom, B. S. (1956). *Taxonomy of Educational Objectives*. New York: Longmans. (in English)
2. Biggs, J. (2003). *Teaching for Quality Learning at University*. Buckingham: Open University Press. (in English)
3. Lazarus, R. S., & Folkman, S. (1984). *Stress, Appraisal, and Coping*. New York: Springer. (in English)
4. Mayer, R. E. (2001). *Multimedia Learning*. Cambridge: Cambridge University Press. (in English)

5. Mammadzada, M. (2025a). The preparation of standards in the field of theoretical and methodological foundations of higher military education in Azerbaijan. *National Aviation Academy, Scientific Collection, 27*(4), 57–65. (in Azerbaijani)
6. Mammadzada, M. (2025b). Management of the educational process in military education institutions in Azerbaijan. *Scientific News of the Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan*, *1*(43), 173–177. (in Azerbaijani)
7. OECD. (2018). *Education at a Glance 2018*. Paris: OECD Publishing. (in English)
8. Ryan, R. M., & Deci, E. L. (2000). Self-Determination Theory and the Facilitation of Intrinsic Motivation, Social Development, and Well-Being. *American Psychologist, 55*(1), 68-78. http://doi.org/10.1037110003-066X.55.1.68 (in English)
9. Siemens, G. (2005). *Connectivism: A Learning Theory for the Digital Age*. (in English)
10. Tinto, V. (1993). *Leaving College: Rethinking the Causes and Cures of Student Attrition*. Chicago: University of Chicago Press. (in English)


## ƏDƏBİYYAT


1. Bloom, B. S. (1956). *Taxonomy of Educational Objectives*. New York: Longmans.
2. Biggs, J. (2003). *Teaching for Quality Learning at University*. Buckingham: Open University Press.
3. Lazarus, R. S., & Folkman, S. (1984). *Stress, Appraisal, and Coping*. New York: Springer.
4. Mayer, R. E. (2001). *Multimedia Learning*. Cambridge: Cambridge University Press.
5. Məmmədzadə, M. (2025a). Azərbaycanda ali hərbi təhsilin nəzəri və metodoloji əsasları sahəsində standartların hazırlanması. *Milli Aviasiya Akademiyası*, *Elmi məcmuə*, *27*(4), 57–65.
6. Məmmədzadə, M. (2025b). Azərbaycanda hərbi təhsil müəssisələrində tədris prosesinin idarə olunması. *Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi Xəbərləri*, *1*(43), 173–177.
7. OECD. (2018). *Education at a Glance 2018*. Paris: OECD Publishing.
8. Ryan, R. M., & Deci, E. L. (2000). Self-Determination Theory and the Facilitation of Intrinsic Motivation, Social Development, and Well-Being. *American Psychologist, 55*(1), 68-78. http://doi.org/10.1037110003-066X.55.1.68
9. Siemens, G. (2005). *Connectivism: A Learning Theory for the Digital Age*.
10. Tinto, V. (1993). *Leaving College: Rethinking the Causes and Cures of Student Attrition*. Chicago: University of Chicago Press.